DÜNYA XƏBƏRLƏRİ

# Rusiyanın Kiyevə zərbəsi zamanı Azərbaycan vətəndaşı həlak olub

Sentyabr 28, 2026




Xarkova Rusiya zərbəsi

Rusiyanın Ukraynanın Kiyev vilayətinə və Xarkov şəhərinə zərbələri nəticəsində, biri Azərbaycan vətəndaşı olmaqla, iki nəfər həlak olub. Onlarla insan, o cümlədən 10 uşaq yaralanıb.

Ukrayna prezidenti **Volodimir Zelenski** ölkənin ikinci ən böyük şəhəri olan Xarkovda çoxmərtəbəli yaşayış binasına endirilən zərbəni Moskvanın "qəddar hücumu" adlandırıb.

**"Kiyev vilayətində iki nəfər həlak olub. Onlardan biri Azərbaycan vətəndaşıdır"**, – Zelenski X sosial şəbəkəsində yazıb.

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) vətəndaşının ölümünü təsdiqləyərək bildirib ki, ölkənin Kiyevdəki səfirliyi mərhumun nəşinin ölkəyə gətirilməsi üçün konsulluq yardımı göstərir.

Xarkov meri **İqor Terexov** sentyabrın 28-də bildirib, Rusiyanın gecə şəhərə hücumu nəticəsində azı 35 nəfər, o cümlədən 10 uşaq yaralanıb.

Terexov bildirib ki, Rusiyanın idarəolunan aviasiya bombası çoxmərtəbəli yaşayış binasına düşüb.

Rusiyanın Dnepr şəhərinin mərkəzinə endirdiyi zərbə isə ofis binasına dəyib. Yanğın baş verib, bir neçə nəfər yaralanıb.

> Rusiya Xarkovda yaşayış binasını vurub, 20-dən çox xəsarət alan var

Sentyabrın 28-nə keçən gecə Rusiya qoşunları Xarkovun Saltovka rayonunda çoxmərtəbəli yaşayış binasına zərbə endirib. 25 nəfər xəsarət alıb. Onlardan doqquzu uşaqdır, üç uşaq xəstəxanaya yerləşdirilib. Binanın bir bloku tamamilə dağılıb, xilasedicilər dağıntılar altında axtarış aparırlar.

Şəhərin Kiyev rayonunda isə 10 fərdi evə ziyan dəyib.

Kiyevdə isə dörd nəfər xəsarət alıb. Şəhərin meri **Vitali Kliçko**nun məlumatına görə, Podil rayonunda üç nəfər yaralanıb, 17 yaşlı yeniyetmə xəstəxanaya yerləşdirilib.

Paytaxtın digər rayonlarında isə yanacaqdoldurma məntəqəsinə, ofis binasına, və yaşayış evinə ziyan dəyib.

Odessa vilayətində iki nəfərin xəsarət aldığı açıqlanıb.

**Rusiya Müdafiə Nazirliyi** Kiyevdə "Ukrtelekom" və "DrimLayn" şirkətlərinə məxsus məlumat emalı mərkəzlərini, yanacaq infrastrukturu obyektlərini vurduğunu bəyan edib. Məlumata görə, Kiyev vilayətində Vasilkov aerodromundakı infrastrukturu, Odessada "Nova Poşta"nın logistika mərkəzi, Çernomorsk limanında quru yük gəmisi, İzmail limanında "Dunaysudoservis" zavodunun infrastrukturu, həmçinin Odessa limanına doğru hərəkət edən gəmi hədəf alınıb.

Ukrayna Silahlı Qüvvələri Rusiyanın ölkəyə 165 zərbə dronla hücum etdiyini, onlardan 112-sinin vurulduğunu bildirir.



**В Краснодарском крае атакована и горит нефтебаза «Эдельвейс-95», — OSINT-анализ ASTRA**

В ночь на 28 сентября жители станицы Новотитаровской сообщили о пролете дронов и многочисленных взрывах, по их словам «в районе железной дороги».

Согласно анализу ASTRA кадров от очевидцев, стало ясно, что горит нефтебаза краснодарской компании ООО «Эдельвейс-95», которая занимается оптовой торговлей нефтепродуктами.

Основная деятельность: оптовые поставки дизельного топлива (Евро-5) и бензина (АИ-92, АИ-95, АИ-100).Объем нефтебазы: 4500 кубических метров. Также у нее есть собственный железнодорожный тупик для отгрузки и приема топлива.

На сайте компании сказано, что «Эдельвейс-95» занимается продажей топлива уже 30 лет и закупает продукцию напрямую у крупнейших российских НПЗ. Также отмечается, что собственная нефтебаза «обеспечивает оперативный доступ ко всему ассортименту продукции и позволяет осуществлять отгрузку в течении одного рабочего дня».

## Neft bazasına dron hücumu

Rusiyanın Krasnodar diyarında dron hücumundan sonra neft bazasında yanğın başlayıb.

"Astra" nəşri yanan obyektin Novotitarovskaya qəsəbəsində yerləşən "Edelveys-95" neft bazası olduğunu müəyyənləşdirib. Şirkət Aİ-92, Aİ-95 və Aİ-100 markalı benzin də daxil olmaqla, neft məhsullarının topdan satışı ilə məşğuldur.

Ukrayna bu il Rusiyanın neft emalı infrastrukturuna dron zərbələrini xeyli artırıb. “Reuters” Beynəlxalq Enerji Agentliyinə istinadən yazır ki, ilin ilk səkkiz ayında Rusiyanın neft emalı zavodları orta hesabla hər üç gündən bir uğurlu hücuma məruz qalıb. İyunda Rusiyada neft emalının həcmi 2025-ci ilin eyni dövrü ilə müqayisədə təxminən 30 faiz azalaraq 2004-cü ildən bəri ən aşağı səviyyəyə düşüb. Benzin istehsalı isə təxminən 20 faiz azalıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur